AZƏRBAYCAN RESPUBLİKASININ ALİ MƏHKƏMƏSİ

AZ 1025, Bakı şəhəri, Yusif Səfərov küçəsi 26 Tel.: (+994 12) 489-07-07 Faks: (+994 12) 498-72-69 Veb: www.supremecourt.gov.az Elektron poçt: contact@supremecourt.gov.az

19 noyabr 2026-cı il **1-8-11-2/2-9787/2026**

Azərbaycan Respublikasının rayon (şəhər), hərbi və apellyasiya məhkəmələrinə

İ C M A L

(*məhkəmələr və səlahiyyətli orqanlar (vəzifəli şəxslər) tərəfindən tətbiq edilən inzibati cərimələrin icra mexanizmlərinə dair*)

Azərbaycan Respublikasının Ali Məhkəməsinə daxil olmuş müraciətlərin təhlili nəticəsində Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinə (bundan sonra – İXM) əsasən məhkəmələr və səlahiyyətli orqanlar (vəzifəli şəxslər) tərəfindən tətbiq edilən inzibati cərimələrin icra mexanizmlərinə dair hüquq tətbiqetmə təcrübəsində fərqli yanaşmaların mövcud olduğu müəyyən edilmişdir. Bu səbəbdən hüquq tətbiqetmə təcrübəsinin vahidliyinin təmin edilməsi məqsədilə aşağıdakı izahlar verilir.

I. Qanuni qüvvəyə minmiş məhkəmə qərarlarının icrası ədalət mühakiməsi hüququnun ayrılmaz tərkib hissəsini təşkil edir. Bu baxımdan Azərbaycan Respublikasının hüquq sistemində ədalət mühakiməsinin məhkəmələrin müstəsna səlahiyyətinə aid olması, məhkəmə qərarlarının dövlətin adından çıxarılması və həmin qərarların məcburiliyinin təmin edilməsi məhkəmə hakimiyyətinin nüfuzunu və qəbul edilmiş məhkəmə aktlarının hüquqi təsirini təmin edən fundamental prinsiplər kimi çıxış edir.

Məhz bununla əlaqədar qanunvericilikdə digər icra sənədlərindən (notariusun icra qeydləri, inzibati xətalara dair işlərə baxmaq səlahiyyətinə malik olan orqanların (vəzifəli şəxslərin) qərarları və s.) fərqli olaraq, məhkəmə aktlarının qərəzli şəkildə icra edilməməsi ictimai təhlükəli əməl kimi qiymətləndirilir və bu əmələ görə cinayət məsuliyyəti nəzərdə tutulur. Belə hüquqi yanaşma ilk növbədə məhkəmə aktlarının icrasının təmin edilməsi yolu ilə dövlətin ədalət mühakiməsinin həyata keçirilməsi sahəsindəki funksiyalarının qorunmasına xidmət edir.

Elektron Sənəd Dövriyyəsi Sistemi
AZƏRBAYCAN RESPUBLİKASININ ALİ MƏHKƏMƏSİ
İmzalayan şəxs: Hafiz Nəsibov / Cinayət kollegiyası / Sədr

Qeyd: <<Elektron imza və elektron sənəd haqqında>> Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.

Sənədin elektron yüklənmə ünvanı:
https://verify.sesda.az/info/esign/HG1Gy5RK9E96FQ1s7NCMZ076BMFNBy1XTtU%2FBrFwgBw%3D

Qeyd edilən səbəblərdən Azərbaycan Respublikasının məhkəmələrinə münasibətdə bu və ya digər formada xüsusi yanaşmanı özündə ehtiva edən tənzimləmə milli hüququn bütün sahələrinə xasdır.

Eləcə də İXM-də inzibati cərimənin tətbiq edilməsi barədə qərarların icrasını tənzimləyən müddəaları sistemli şəkildə təhlil etdikdə məlum olur ki, qanunverici məhkəmə və ya səlahiyyətli orqan (vəzifəli şəxs) tərəfindən qəbul edilməsindən asılı olaraq, bu qərarların icrası ilə bağlı 2 fərqli mexanizm müəyyən etmişdir.

Bu fərqliliklər özünü inzibati cərimənin ödənilməsi müddətində (İXM 150.1; 150.2), bu barədə qərarın məcburi icraya yönəldilməsi qaydasında (İXM 150.7; 150.8) və məcburi icrası üçün müəyyən edilmiş müddətdə (İXM 150.9), cərimənin müəyyən bir hissəsindən azadolmanın tətbiqində (İXM 150.1-1), habelə cəriməni ödəməyən şəxsə dəbbə pulu hesablanmasında (İXM 150.11, 150.13, 150.15) göstərir.

Belə ki, İXM-in 141.2-ci maddəsinə görə məhkəmələr tərəfindən baxılan inzibati xətalara dair işlər üzrə inzibati cərimə tətbiq edilməsi barədə qərarlar bu Məcəllənin 142, 143, 144.1, 145, 146.3, 147, 150.2, 150.8, 150.9 və 150.10-cu maddələrinin tələbləri nəzərə alınmaqla "İcra haqqında" Azərbaycan Respublikasının Qanununa müvafiq olaraq icra edilir. Bu maddələrdə isə məhkəmə qərarlarının qısa müddətdə icrası üçün effektiv mexanizm müəyyən edilərək məhkəmələr tərəfindən tətbiq edilmiş inzibati cərimədən hər hansı məbləğdə azadolmanın tətbiq edilməsi, eləcə də həmin cəriməni ödəməyən şəxsə dəbbə pulunun hesablanması göstərilməmişdir.

Göründüyü kimi, qanunverici inzibati cərimənin tətbiq edilməsi barədə qərarların icrası qaydalarını müəyyən edərkən, məhkəmə hakimiyyətinin xüsusi statusunu, məhkəmənin tətbiq etdiyi inzibati cərimənin ədalət mühakiməsi nəticəsində müəyyən edilmiş qəti hüquqi məsuliyyət tədbiri olduğunu, onun icrası üzrə güzəştin və ya gecikməyə görə dəbbə pulunun tətbiqinin isə "res judicata" prinsipinin pozulmasına gətirib çıxaracağını nəzərə almış və məhkəmə qərarlarının icrası üçün digər səlahiyyətli orqanların (vəzifəli şəxslərin) qərarlarına münasibətdə daha ciddi mexanizm formalaşdırmışdır.

İXM-in 150.2-ci maddəsinə əsasən, inzibati cərimə növündə inzibati tənbeh tətbiq etmə haqqında məhkəmənin qərarı qanuni qüvvəyə mindikdən və ya bu Məcəllənin 143-cü maddəsində nəzərdə tutulmuş möhlət verilmənin, təxirəsalmanın müddəti bitdikdən on gündən gec olmayaraq, inzibati xəta törətmiş şəxs inzibati cəriməni ödəməlidir.

Həmin Məcəllənin 150.1-ci maddəsində isə göstərilir ki, inzibati cərimə növündə inzibati tənbeh tətbiq etmə haqqında səlahiyyətli orqanın (vəzifəli şəxsin) qərarı qanuni qüvvəyə mindikdən və ya bu Məcəllənin 143-cü maddəsində nəzərdə tutulmuş möhlət verilmənin, təxirəsalmanın müddəti bitdikdən otuz gündən gec olmayaraq, inzibati xəta törətmiş şəxs inzibati cəriməni ödəməlidir.

"Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" 24 iyun 2025-ci il tarixli 225-VIIQD nömrəli Azərbaycan Respublikasının

Elektron Sənəd Dövriyyəsi Sistemi
AZƏRBAYCAN RESPUBLİKASININ ALİ MƏHKƏMƏSİ
İmzalayan şəxs: Hafiz Nəsibov / Cinayət kollegiyası / Sədr

Qeyd: <<Elektron imza və elektron sənəd haqqında>> Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.

Sənədin elektron yüklənmə ünvanı:
https://verify.sesda.az/info/esign/HG1Gy5RK9E96FQ1s7NCMZ076BMFNBy1XTtU%2FBrFwgBw%3D

Qanunu ilə İXM-ə yeni məzmunda 150.1-1-ci maddə əlavə edilmişdir. Həmin maddədə göstərilir ki, inzibati cərimə növündə inzibati tənbeh vermə haqqında səlahiyyətli orqanın (vəzifəli şəxsin) qərarı qanuni qüvvəyə mindiyi gündən 10 gün müddətində icra edilərsə, tətbiq olunan cərimənin 10 faizi məbləğində ödənişdən azadolma tətbiq edilir.

Bununla bağlı məhkəmələr nəzərə almalıdırlar ki, İXM-də istifadə edilən "səlahiyyətli orqan (vəzifəli şəxs)" ifadəsi "inzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan orqanlar" ifadəsi ilə eyni mənalı olmamaqla özündə məhkəmələri (hakimi) ehtiva etmir. Qeyd edilənləri "səlahiyyətli orqan (vəzifəli şəxs)" sözlərinin "hakim" sözü ilə yanaşı işləndiyi, eləcə də onlara görə fərqli tənzimləmənin müəyyən edildiyi İXM-in bir çox maddələrinin (8.1, 16.4, 18.5, 18.6, 25.1, 29.2, 36.1 və s.) məzmunundan da görmək mümkündür.

Bundan başqa, qanunverici İXM-ə yeni əlavə etdiyi bu struktur elementini (150.1-1-ci maddəni) normayaratma texnikası baxımından məqsədli şəkildə 150.1-ci maddənin ardınca yerləşdirməklə bu müddəanın həmin Məcəllənin 150.2-ci maddəsində müəyyən edilən inzibati cərimə növündə inzibati tənbeh tətbiq etmə haqqında məhkəmənin qərarının icrasına aidiyyətinin olmadığını aşkar şəkildə nümayiş etdirmişdir.

Beləliklə, İXM-in 150.1-1-ci maddəsinin mənasına görə, qərarın qanuni qüvvəyə mindiyi gündən 10 gün müddətində icra edilməsi zamanı tətbiq olunan cərimənin 10 faizi məbləğində ödənişdən azadolma məhkəmənin deyil, səlahiyyətli orqanların (vəzifəli şəxsin) qərarı ilə tətbiq edilmiş inzibati cərimələrə aiddir.

Eynilə bir sıra inzibati xətaların törədilməsinə görə inzibati cərimə növündə inzibati tənbeh tətbiq etmə haqqında qərar qanuni qüvvəyə mindiyi gündən müəyyən edilmiş müddətdə cəriməni qanunda nəzərdə tutulmuş əsaslar olmadan ödəməyən şəxsə onun ödənilmədiyi hər növbəti gün üçün, lakin 2 aydan çox olmamaq şərti ilə dəbbə pulunun hesablanması ilə bağlı İXM-in 150.11 və 150.13-cü maddələrində nəzərdə tutulmuş qayda həm yuxarıda qeyd edilən səbəblərdən, həm də məhkəmələr tərəfindən baxılan inzibati xətalara dair işlər üzrə inzibati cərimə tətbiq edilməsi barədə qərarların icrasını tənzimləyən İXM-in 141.2-ci maddəsinin qəti tələbinə görə məhkəmə qərarı ilə müəyyən edilmiş inzibati cərimələrə şamil edilmir.

Ümumiyyətlə, nəzərə alınmalıdır ki, Azərbaycan Respublikasının qanunvericiliyində məhkəmə qərarını icra etməməyə görə fərdi məsuliyyət tədbirinin yalnız məhkəmələr tərəfindən tətbiq edildiyi müəyyən edilmişdir.

Qeyd edilənlərə əsasən, məhkəmə qərarı ilə müəyyən edilmiş inzibati cəriməyə hər hansı məbləğdə ödənişdən azadolmanın tətbiq edilməsi, eləcə də həmin cəriməni ödəməyən şəxsə dəbbə pulunun hesablanması yolverilməzdir.

Bununla bağlı həmçinin nəzərə alınmalıdır ki, inzibati xəta haqqında iş üzrə səlahiyyətli orqanın (vəzifəli şəxsin) inzibati cərimənin tətbiq edilməsi haqqında qərarından verilən şikayətə və ya protestə baxılaraq həmin qərarın dəyişdirilmədən, şikayətin və ya protestin isə təmin edilmədən saxlanılması inzibati cərimənin məhkəmə

Elektron Sənəd Dövriyyəsi Sistemi
AZƏRBAYCAN RESPUBLİKASININ ALİ MƏHKƏMƏSİ
İmzalayan şəxs: Hafiz Nəsibov / Cinayət kollegiyası / Sədr

Qeyd: <<Elektron imza və elektron sənəd haqqında>> Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.

Sənədin elektron yüklənmə ünvanı:
https://verify.sesda.az/info/esign/HG1Gy5RK9E96FQ1s7NCMZ076BMFNBy1XTtU%2FBrFwgBw%3D

tərəfindən tətbiq edilməsi hesab edilmir və qeyd edilən inzibati cərimələr üzrə ödənişdən azadolmanın tətbiqi və ya cəriməni ödəməyən şəxsə dəbbə pulunun hesablanması müvafiq olaraq İXM-in 150.1-1, 150.11, 150.13 və 150.15-ci maddələri əsasında həll edilir.

Bundan başqa, İXM-in 150.8-ci maddəsində göstərilir ki, bu Məcəllənin 150.2-ci maddəsində nəzərdə tutulmuş müddətdə inzibati cərimə ödənilmədikdə inzibati cərimə növündə inzibati tənbeh tətbiq etmə haqqında məhkəmənin qərarı məcburi icraya yönəldilir.

Bununla bağlı məhkəmələr nəzərə almalıdırlar ki, inzibati cərimə növündə inzibati tənbeh tətbiq etmə haqqında məhkəmənin qərarının məcburi icraya yönəldilməsi həmin qərar qanuni qüvvəyə mindikdən və ya bu Məcəllənin 143-cü maddəsində nəzərdə tutulmuş möhlət verilmənin, təxirəsalmanın müddəti bitdikdən sonra on gün ərzində inzibati cərimə ödənilmədikdə həyata keçirilməlidir. Qeyd edilən müddət bitməmiş, eləcə də bu müddətdə tətbiq edilmiş inzibati cərimə ödənildiyi halda həmin qərarın məcburi icraya yönəldilməsi yolverilməzdir.

Həmçinin məhkəmələr nəzərə almalıdırlar ki, İXM-in 25.1-ci maddəsinə əsasən, inzibati cərimə təqsirkar şəxsdən dövlətin xeyrinə məcburi tutulan pul məbləğidir. İXM-in 25.8-ci maddəsinə uyğun olaraq, qanunla müəyyən edilmiş istisnalar nəzərə alınmaqla inzibati cərimə Azərbaycan Respublikasının dövlət büdcəsinə ödənilməlidir. Bu baxımdan cərimənin ödənilməsi zamanı istifadə edilən rekvizitlər ödənişin qanuni təyinatına və müvafiq büdcəyə köçürülməsini təmin edən tələblərə uyğun olmalıdır.

II. İXM-in 45-1.3, 45-2.2 və 117.3-cü maddələrinin tələblərinə əsasən, məhkəmə tərəfindən qəbul edilmiş inzibati xəta haqqında iş üzrə qərar barədə məlumat “Rəqəmsal dövlət maliyyəsi” informasiya sisteminin “İCMAL” altsisteminə göndərilməli və qərara unikal nömrə verilməlidir.

Bununla bağlı qeyd edilməlidir ki, həmin maddələr İXM-ə “Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında” 24 iyun 2025-ci il tarixli 225-VIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu ilə əlavə edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 6 iyul 2026-cı il tarixli 711 nömrəli Fərmanına əsasən, həmin Qanunun icrası ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 1 iyun tarixli 1043 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Elektron məhkəmə” informasiya sistemi haqqında Əsasnamə”yə də dəyişiklik edilmiş və yeni məzmunda 6.1.21-1-ci yarımbənd əlavə edilmişdir. Həmin yarımbəndə əsasən, “Elektron məhkəmə” informasiya sistemi vasitəsilə inzibati xəta haqqında iş üzrə çıxarılmış qərarın İXM-in 117.3-cü maddəsinə uyğun olaraq inzibati xəta haqqında protokolu tərtib etmiş səlahiyyətli orqana (vəzifəli şəxsə) və ya inzibati xəta haqqında iş üzrə icraatın başlanması haqqında qərar qəbul etmiş prokurora və barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan şəxsin məlumatlandırılması üçün “ASAN ödəniş” informasiya

Elektron Sənəd Dövriyyəsi Sistemi
AZƏRBAYCAN RESPUBLİKASININ ALİ MƏHKƏMƏSİ
İmzalayan şəxs: Hafiz Nəsibov / Cinayət kollegiyası / Sədr

Qeyd: <<Elektron imza və elektron sənəd haqqında>> Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.

Sənədin elektron yüklənmə ünvanı:
https://verify.sesda.az/info/esign/HG1Gy5RK9E96FQ1s7NCMZ076BMFNBy1XTtU%2FBrFwgBw%3D

sisteminə, habelə həmin qərarla bağlı məlumatların “Rəqəmsal dövlət maliyyəsi” informasiya sisteminin “İnzibati cərimələrin mərkəzi avtomatlaşdırılmış lövhəsi” (İCMAL) altsisteminə göndərilməsi təmin edilməlidir.

Yuxarıda qeyd edilən Qanunun qəbulu zamanı əhəmiyyətli təkmilləşdirmə və dəyişikliklər əsasında mürəkkəb proseslərdən keçməli olan “İCMAL” (və ya 21 aprel 2026-cı il tarixli 388-VIIQD nömrəli Qanunla verilmiş redaksiyaya uyğun olaraq “Rəqəmsal dövlət maliyyəsi”) informasiya sisteminin qısa müddətdə formalaşdırılmasının mümkünsüzlüyü nəzərə alınmış və Qanunda keçid müddəaları müəyyən edilmişdir. Keçid müddəalarının 2.3-cü maddəsində qeyd olunur ki, Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 45-1-ci maddəsində nəzərdə tutulan informasiya sistemi fəaliyyətə başlayana qədər inzibati xəta haqqında protokollar və səlahiyyətli orqan (vəzifəli şəxs) tərəfindən inzibati xəta haqqında işə baxılarkən çıxarılan qərarlar (qərardadlar) bu Qanun qüvvəyə mindiyi tarixədək qüvvədə olan Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi ilə müəyyən olunmuş qaydada tərtib və icra olunur.

Göründüyü kimi, keçid müddəalarında məhkəmələr tərəfindən çıxarılan qərarların həmin Qanun qüvvəyə mindiyi tarixədək qüvvədə olmuş İXM-də müəyyən edilmiş qaydada icra olunması birbaşa nəzərdə tutulmasa da, qanunvericiliyin sistemli təhlili eyni yanaşmanın məhkəmələrə münasibətdə də tətbiqini zəruri edir. Belə ki, “Rəqəmsal dövlət maliyyəsi” informasiya sistemi fəaliyyətə başlamazdan əvvəl məhkəmələrin həmin sistem vasitəsilə həyata keçirilməsi nəzərdə tutulan əməliyyatları yeni qaydada icra etməsi obyektiv baxımdan mümkün deyildir. Bu səbəbdən həmin informasiya sistemi fəaliyyətə başlayanadək məhkəmələr tərəfindən qəbul edilən qərarların da əvvəlki qanunvericiliklə müəyyən edilmiş qaydada icra olunması hüquqi müəyyənliyin və qərarların icrasında fasiləsizliyin təmin edilməsi baxımından zəruridir.

Belə ki, İXM-in 45-1.3-cü maddəsinə əsasən, cərimə növündə inzibati tənbeh tətbiq etməni nəzərdə tutan inzibati xəta haqqında iş üzrə qərarlara, o cümlədən elektron qərarlara “Rəqəmsal dövlət maliyyəsi” informasiya sisteminin “İCMAL” altsistemi vasitəsilə unikal nömrə verilmədən həmin qərarların icra olunması (o cümlədən dəbbə pulunun hesablanması) tələb edilə bilməz.

Belə olan halda “Rəqəmsal dövlət maliyyəsi” informasiya sisteminin “İCMAL” altsistemi istifadəyə verilməyənədək məhkəmələr tərəfindən tətbiq edilmiş inzibati cərimənin icrası mümkün olmur. Bu isə dövlətin ədalət mühakiməsinin həyata keçirilməsi üzrə vəzifələrinin təmin edilməməsi ilə nəticələnməklə Azərbaycan Respublikasının Konstitusiyasının 24-cü maddəsinin III hissəsinə əsasən yol verilmədiyi göstərilən hüquqlardan sui-istifadəyə şərait yaradar.

Odur ki, İXM-in 45-1.3-cü maddəsində müəyyən edilən tələbə riayət edilməsinin “Elektron məhkəmə” informasiya sistemi vasitəsilə inzibati xəta haqqında iş üzrə çıxarılmış qərarın “ASAN ödəniş” informasiya sisteminə, habelə həmin qərarla bağlı

Elektron Sənəd Dövriyyəsi Sistemi
AZƏRBAYCAN RESPUBLİKASININ ALİ MƏHKƏMƏSİ
İmzalayan şəxs: Hafiz Nəsibov / Cinayət kollegiyası / Sədr

Qeyd: <<Elektron imza və elektron sənəd haqqında>> Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.

Sənədin elektron yüklənmə ünvanı:
https://verify.sesda.az/info/esign/HG1Gy5RK9E96FQ1s7NCMZ076BMFNBy1XTtU%2FBrFwgBw%3D

məlumatların “Rəqəmsal dövlət maliyyəsi” informasiya sisteminin “İnzibati cərimələrin mərkəzi avtomatlaşdırılmış lövhəsi” (İCMAL) altsisteminə göndərilməsi təmin edildikdən sonra mümkün olduğu nəzərə alınmalı və bu məsələ öz həllini tapanadək məhkəmələr tərəfindən çıxarılmış inzibati cərimə növündə inzibati tənbeh tətbiq etmə haqqında qərarlar 1 avqust 2025-ci il tarixədək qüvvədə olmuş İXM-lə müəyyən olunmuş qaydada icra edilməlidir. Bu məqsədlə də məhkəmə qərarı ilə tətbiq edilən inzibati cərimələr üzrə ödənişlər “Büdcə sistemi haqqında” Azərbaycan Respublikasının Qanununun 4.2-ci maddəsinə müvafiq olaraq Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 11 oktyabr tarixli 440 nömrəli qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının büdcə gəlirlərinin təsnifatı”nda müəyyən edilən müvafiq bölmə, köməkçi bölmə, paraqraf, maddə və yarımmaddələr üzrə həyata keçirilməlidir.

Cinayət kollegiyasının sədri **Hafiz Nəsibov**

Elektron Sənəd Dövriyyəsi Sistemi
AZƏRBAYCAN RESPUBLİKASININ ALİ MƏHKƏMƏSİ
İmzalayan şəxs: Hafiz Nəsibov / Cinayət kollegiyası / Sədr

Qeyd: <<Elektron imza və elektron sənəd haqqında>> Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.

Sənədin elektron yüklənmə ünvanı:
https://verify.sesda.az/info/esign/HG1Gy5RK9E96FQ1s7NCMZ076BMFNBy1XTtU%2FBrFwgBw%3D